

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 122 (24.009)

*1 iyul 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

İyunun 29-da Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub. Prezident İlham Əliyevin Türkmənistana səfəri başa çatıb.

***

İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntopu, Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Sancranini, Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul edib.

***

Prezident İlham Əliyev iyunun 30-da Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransında çıxış edib. Çıxışda qeyd olunub ki, ilk günlərdən Azərbaycan Qoşulmama Hərəkatının bütün təşəbbüslərinə çox fəal cəlb olunmuşdur. 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısı müvəffəqiyyətlə keçirildi və Azərbaycan 2019-2022-ci ilə qədər sədrliyi üzərinə götürdü. Qoşulmama Hərəkatına sədrliyin yenə də 120 ölkənin yekdil qərarı ilə 2023-cü ilin axırına kimi uzadılması ölkəmizə böyük bir hörmət və fəaliyyətimizin qiymətləndirilməsi əlamətidir.




## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iyun ayının son 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2022-ci il 17 iyun tarixli Qərarı ilə kütləvi tədbirlərin keçirilməsini təmin etmək məqsədilə Naxçıvan "Gənclik" Mərkəzi Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyindən çıxarılaraq əmlakı ilə birlikdə "Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" publik hüquqi şəxsin tabeliyinə verilmişdir.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının dövlət səhiyyə müəssisələrində çalışan işçilərin geyim formalarının təsvirləri" təsdiq edilmişdir. Həmin Qərara görə geyim formaları təbii və keyfiyyətli parçalardan tikilməli, işçilərin sağlamlığına mənfi təsir göstərməməlidir. Geyim formalarının təsvirlərinin tələblərinə işçilər tərəfindən riayət edilməsinə müəssisənin rəhbərliyi nəzarət edir.

Bundan başqa, Nazirlər Kabinetinin 2022-ci il 29 iyun tarixli Qərarı ilə "İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası"nda dəyişiklik edilmişdir.

Eyni zamanda Nazirlər Kabinetinin eyni tarixli digər Qərarı ilə "Yay otlaq fondu torpağının istifadəsi üçün icazə" blankının formasının və "Yay otlaqlarının, örüş sahələrinin və biçənəklərin istifadəsinə dair Tələblər" təsdiq edilmişdir. Qərara uyğun olaraq fiziki və hüquqi şəxslər yay otlaq sahələrindən istifadə etmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən müvafiq icazə almalıdırlar. Qeyd edək ki, yay otlaq sahələrindən istifadə hər il iyul ayının 15-dən başlanılır, oktyabr ayının 15-də başa çatır. Bu tarixlərdən kənar vaxtlarda yaylaqlardan istifadə qanunvericiliyə uyğun olaraq məsuliyyət yaradır.

"Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Nazirlər Kabinetinin 2022-ci il 30 iyun tarixli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar ilk dəfə işə düzələn zaman Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinin "Sosial müdafiə və sosial təminat" bölməsində Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılmış vəsait hesabına qanunvericiliklə müəyyən edilmiş normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqla təmin olunurdusa, hazırda onların öz istəyinə uyğun olaraq sadalananların əvəzinə 265 manat məbləğində pul kompensasiyası ödəniləcəkdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Muxtar respublikamızda həyata keçirilən yenidənqurma, bərpa işləri prioritet istiqamətlərdəndir





*Muxtar respublikamızda həyata keçirilən mühüm tədbirlərdən birini yaşayış məntəqələrimizin müasir üslubda, günün tələbləri səviyyəsində qurulmasına şərait yaradan tikinti, bərpa və yenidənqurma işləridir. Bu uğurlu proseslərin nəticəsində artıq şəhərimizdə Avropa standartlarına cavab verən infrastruktur, yaraşıqlı park və xiyabanlar, istirahət guşələri insanların rahatlığına xidmət edir.*

Ötən dövrdə şəhərimizin bir çox məhəllələrində, şose yollarda, o cümlədən də Naxçıvan-Batabat magistral yolunun kənarlarındakı səkilərdə təmir-bərpa işləri aparılıb, yararsız bordürlər sökülərək yeniləri ilə əvəz olunub, magistral yollar üzərindəki nəqliyyat nişanları yenilənib, metal mühafizə çəpərlərində boyama işləri həyata keçirilib. Hazırda şəhərimizin bir çox məhəllələrində, o cümlədən 48-ci, 49-cu məhəllələrdə abadlıq-bərpa işləri həyata keçirilir. Yusif Məmmədəliyev küçəsində yerləşən piyada zolaqları yeni daş örtüklərlə əvəz olunur, şəhərin Mirzə Ələkbər Sabir küçəsində isə yeni asfalt örtüyü salınır. Həyata keçirilən bu tədbirlərin davamı kimi əhalinin rahatlığını da nəzərə alaraq həyətyanı sahələrdəki evlərin fasadlarında boyama işləri icra olunur, yararsız qaz xətləri yeniləri ilə əvəz edilir. Şəhərimizdəki 3-cü küçədə də yeni istirahət parkının salınması işləri uğurla davam etdirilir, yollara kilid daşlar döşənilir. Həmçinin parkın ətrafında həmişəyaşıl dekorativ bitkilərin əkilməsi estetik baxımdan şəhərimizin gözəlliyinə daha maraqlı bir ab-hava qatır. Qeyd etdiyimiz təmir-bərpa işləri şəhərimizin Əlincə, 7A məhəllələrində, "Azərbaycan" küçəsində və Əliabad qəsəbəsində də davam etdirilir. Ərazilərdəki su-kanalizasiya, elektrik və rabitə xətlərində də yeniləmə işləri həyata keçirilir.

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Andiçmə mərasimi keçirilib

Muxtar respublikanın ədliyyə orqanlarında kadr hazırlığı işi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə ilin əvvəlindən icra və probasiya qurumlarında vakant icra məmuru, eləcə də nazirliyin Məhkəmə Ekspertizası Mərkəzində vakant ekspert vəzifəsi üzrə vəzifələrin tutulması üçün müsahibə elan edilib. Müvafiq mərhələləri müvəffəqiyyətlə başa vuran namizədlər ədliyyə orqanlarına qulluğa qəbul ediliblər.



İyunun 30-da həmin namizədlərin andiçmə mərasimi keçirilib. Mərasimdə təyinat alan əməkdaşların əmrləri elan olunub, gənc ədliyyə qulluqçuları Azərbaycan Respublikasının Dövlət Bayrağının önündə and içib andın mətnini imzalayıblar.

Yeni işə qəbul olunan gənclər "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ədliyyə qulluqçularının andına sadiq qalacaqlarını, ümummilli liderimiz Heydər Əliyevin ideyalarına, dövlətə və dövlətçiliyə sədaqətlə xidmət edəcəklərini vurğulayıblar. Təyinat alan əməkdaşlar gənclərə yaradılan şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirib, göstərilən qayğının müqabilində səylə çalışaraq muxtar respublikamızın inkişaf və tərəqqisinə öz töhfələrini verəcəklərinə söz veriblər.

***Naxçıvan Muxtar Respublikası***
***Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Rabitə xətlərində təmir-bərpa işləri davam etdirilir



Sədərək rayonunda digər sahələrdə olduğu kimi, rabitə və yeni texnologiyalar sahəsində də sürətli inkişaf müşahidə olunur. Həyata keçirilən sosial-iqtisadi islahatlar rabitə sahəsinin inkişafına əsaslı zəmin yaradıb, ən müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması istiqamətində bir sıra layihələr həyata keçirilib. Ən müasir texnologiyaların tətbiqi rayonda həyata keçirilən tədbirlər uğurlu nəticələrin əldə olunmasına şərait yaradıb.

Rayonun bütün yaşayış məntəqələri fiber-optik xətt və sürətli internetlə təmin olunub. Sakinlərin rabitə və internet xidmətlərinə olan tələbatının ödənilməsi məqsədilə rayon mərkəzində və kəndlərdə mövcud avtomat telefon stansiyalarının internet tutumları artırılaraq internet istifadəçilərinin tələbatının ödənilməsinə şərait yaradılıb. Həmçinin istismar müddəti ərzində rabitə xətt və abunə qurğularında yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində də operativ və zəruri tədbirlər həyata keçirilir. Belə ki, rayonun Sədərək, Dəmirçi və Qaraağac kəndlərində xətt təsərrüfatında təmir-bərpa işləri davam etdirilir. Uzun müddət istismar olunan və müxtəlif səbəbdən yararsız vəziyyətə düşən taxta rabitə dirəkləri metal dirəklərlə əvəz olunur, müxtəliftutumlu kabellər çəkilir və digər nasazlıqlar aşkar edilərək bərpa olunur.

Qeyd edək ki, rayonun Dəmirçi və Sədərək kəndlərində istismarda olan yeni nəsil avtomat telefon stansiyalarının internet tutumu da artırılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Rabitə və Yeni Texnologiyalar Nazirliyinin***
***mətbuat xidməti***

*Müasir dövrdə otelçiliyin ən geniş yayılmış nümunələrindən biri də "Saray"lar, yəni "Palace"lardır. Dünyaca məşhur brend otellərdən fərqli olaraq "Palace"lar daha çox yerləşdiyi şəhərlərin adları üzərində assosiasiya olunur. İlk dəfə Fransa mehmanxana sənayesində işlənilmiş "saray" termini dəbdəbə, stil və ən yüksək xidmətin zəmanəti kimi, 2010-cu ildən elə həmin ölkədə yeni kateqoriya olaraq ratifikasiya edilib. Bununla yanaşı, beşulduzlu kateqoriyanı özündə birləşdirən "Saray" otellərini digərlərindən fərqləndirən interyer və eksteryer dizaynı, qastronomiya, otelin ətraf mühitlə əlaqəsi, xidmətin keyfiyyəti, kollektivin yüksək peşəkarlığa malik olması və sairdir. Muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində yeni istifadəyə verilmiş "Naxçıvan Saray" kompleksi də müasir turizmin inkişafı baxımından atılmış ən mühüm addımlardan biridir. Elə kompleksin direktoru Rahib İsmixanovla söhbətimizdə də yeni müəssisənin iş prinsipindən, muxtar respublika turizminə hansı töhfələri verə biləcəyindən danışdıq:*



# "Naxçıvan Saray" kompleksi: *dəbdəbə, stil və yüksək xidmətin zəmanəti*

***– Rahib müəllim, bu yaxınlarda Naxçıvan şəhərində "Naxçıvan Saray" kompleksi istifadəyə verildi və bu haqda kütləvi informasiya vasitələrində məlumatlar yayıldı. Ancaq istərdim oxucularımız üçün otel haqqında məlumatları bir daha xatırlayaq.***

– İlk olaraq qeyd edim ki, "Naxçıvan Saray" Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən dövlət qayğısının nəticəsində fəaliyyətə başlayıb. Məqsəd turizmin inkişafına töhfə vermək, muxtar respublikada otelçilik fəaliyyətini daha da genişləndirmək, məşğulluğu təmin etməkdir.





***– Düşünürəm ki, burada "palace" otellərə məxsus bütün xidmətlər təşkil olunur.***

– Bəli, hazırda burada otel, şadlıq sarayı, ofis, restoran, mətbəx və avtopark xidmətləri göstərilir. Gələcəkdə qadın və kişilər üçün ayrılıqda fitnes salonları və digər xidmətlər də təşkil olunacaq. Qeyd etdiyimiz bu xidmətlərin hamısı zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olan bu binada təqdim olunur.

***– Səhv etmirəmsə, buradakı avtodayanacaq tutumuna görə muxtar respublikada ən böyük avtomobil parkıdır.***

– Bəli, binanın 5 mərtəbəsinin hər birində avtomobil dayanacağı var. Ümumi olaraq park 538 avtomobil yerlikdir. İstər qonaqlar, istərsə də yerli sakinlər buradakı dayanacaq xidmətindən istifadə edə bilərlər. Dayanacağın qapalı olması istənilən hava şəraitində avtomobillərin etibarlı şəkildə qorunmasını təmin edir. Digər xidmət sahələrinə gəldikdə isə binanın dördüncü mərtəbəsində 800 və 340 yerlik olmaqla, 2 şadlıq sarayı, həmçinin bu mərtəbədə mətbəx, soyuducu kameralar, qarderoblar, iş və digər xidməti otaqlar yerləşir. Şadlıq saraylarından iclas və konfrans keçirmək üçün də istifadə oluna bilər. Bunun üçün orada proyektor, kürsü, müasir səs sistemi avadanlığı quraşdırılıb. 5-ci mərtəbədə isə otel yerləşir ki, burada da, əsasən, müxtəlif kateqoriyaları əhatə edən 45 otaq mövcuddur. Əlavə olaraq bu mərtəbədə iş otaqları və server, eləcə də 80 yerlik restoran vardır. Onu da deyim ki, 800 nəfərlik zalımız "Safir zal", 340 nəfərlik zalımız isə "Mirvari zal" adlanır.

***– Tərtibatçılıq estetikası baxımından binanın interyeri mükəmməldir. Hətta "Kəhrəba" restoranını da bura əlavə etsək, bu zalların qiymətli daşlarla adlandırılması xüsusi bir məna kəsb edir, yoxsa?..***

– Yox, zallar, sadəcə, bu qiymətli daşların gözəllik, saflıq, həm də uzunömürlü olması kimi xüsusiyyətləri nəzərə alınaraq dizayn edilib. Həm də bildiyiniz kimi, bu təbii daşların rəngi də gözlər üçün yorucu deyil. Ona görə də restoran və zalların daşların təbii rənginə uyğunlaşdırılması, tavan və divarların müxtəlif həndəsi ornamentlərlə bəzədilməsi bir növ saraylara məxsus illüstrasiyalardan ilhamlanaraq işlənilib.

***– Rahib müəllim, "Naxçıvan Saray" kompleksi hibrid xidmətlər təşkil olunan bir obyektdir, burada avtopark, restoran, otel və digər xidmətlər göstərilir. Açıq desək, bu gün turizmdə ən çox problemlərlə qarşılaşdığımız sahələrin önündə də xidmət sahələri dayanır. Bu istiqamətdə kadr hazırlıqları nə yerdədir? Hər halda yeni ünvana gələn istənilən şəxs ilk olaraq bunu qiymətləndirəcək: müsbət və ya mənfi mənada.***

– Fikirlərinizlə tamamilə razıyam. Qeyd etməliyəm ki, dediyiniz sahələrdə xidmətin indiyə qədər mükəmməl formalaşmamasının səbəbləri var. Diqqət etsək və ya araşdırma aparsaq, görərik ki, bizdə bu sahələrdə çalışanların böyük əksəriyyəti işlədiyi yerlərə müvəqqəti iş yeri kimi baxanlardır.

***– Məsələn, şəxsən mən hansısa yeməkxanada heç 5 il davamlı çalışan qarson tanımıram.***



– Tamamilə doğrudur. Əslində, bu, digər ölkələrdə də geniş yayılıb. Məsələ ondadır ki, indi restoranlarda qarson kimi işləyənlərin, demək olar ki, heç biri bu işi, xüsusilə seçməyiblər. Sadəcə, iş axtarıblar və nəticədə, bunu tapıblar. Ancaq nəzərə alaq ki, qarson kimi işə başlayıb, sonrakı mərhələlərdə restoran müdirinə qədər yüksələn işçilərimiz də olub. Məncə, burada əsas məsələlərdən biri sahibkarın kadrlara yanaşma tərzindən qaynaqlanır. Əgər sahibkar öz restoranında aşbaza yüksək, qarsona isə aşağı səviyyəli münasibət göstərirsə, bu problem həll olunmayacaq. Halbuki restoran sahibi onu anlamalıdır ki, yeməyi yaxşı hazırlamaq işin bir tərəfidirsə, həmin yeməyi gözəl təqdim etmək də məsələnin digər tərəfidir. Konkret bizə gəlincə, hələ kompleks istifadəyə verilməmişdən öncə kadr hazırlıqlarına başlamışıq. Kadrları hazırlayarkən heç bir restoran və oteldən işçi cəlb etmədik. Burada çalışan hər bir kadrın hazırlığını özümüz apardıq. Çünki qarşımıza məqsəd qoymuşduq ki, Naxçıvanın adını daşıyan bu Saray kompleksi özü özü üçün bir dəyər yaratmalıdır. Sizin də söhbətdən əvvəl qeyd etdiyiniz kimi: korporativ dəyər. Təbii ki, bunun üçün qarşımızda hələ uzun bir yol var. Hər şeyi zaman göstərəcək, ancaq bizim məqsədimiz bu sarayda peşəkar kollektiv formalaşdırmaqdır. Eyni zamanda işçi cəlbində müasir bazar tələblərinin təmin edilməsi də bizim üçün əsas şərtdir. Elə buna görədir ki, hazırda bizim otel və restoran xidmətlərində ingilis və rus dillərini bilən kadrlarımız çalışır. Yeri gəlmişkən kadr hazırlığı məsələləri ilə bağlı bir planımız da var. İstəyirik ki, gələcəkdə xidmət sahələrində işləmək istəyənlər üçün kurslar da təşkil edək. Burada hazırlanacaq kadrlar tək bizim şirkətdə deyil, digər sahibkarlıq subyektlərində də kadrlara olan ehtiyacı təmin edə bilsin.



***– Son sualımı vermək istərdim. "Naxçıvan Saray" kompleksinin turizmə hansı töhfələr verəcəyini gözləyirsiniz?***

– İlk növbədə, bu kompleksin istifadəyə verilməsini Naxçıvanın iqtisadi inkişafının nəticəsi kimi qiymətləndirməliyik. Töhfəyə gəldikdə isə yeni kompleksin istifadəyə verilməsi Naxçıvan şəhərində otel və restoran şəbəkəsinin genişlənməsinə, xidmət sahəsində sağlam rəqabətin formalaşmasına, getdikcə artan turist tələbatının yüksək səviyyədə təmin edilməsinə şərait yaradacaqdır.

***– Suallarımızı cavablandırdığınız üçün sağ olun.***

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

---

*Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində davamlı tədbirlər görülür. Kənd təsərrüfatı inkişaf etdirilir, məhsul istehsalı artırılır. Bu işlərin həyata keçirilməsində meliorasiya və irriqasiya tədbirləri xüsusi yer tutur. Hazırda muxtar respublikanın torpaq ehtiyatından səmərəli istifadə olunur, mütərəqqi suvarma metodları tətbiq edilir, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır.*

# Qapalı suvarma şəbəkəsindən istifadə kənd təsərrüfatının inkişafına mühüm töhfədir

## *Babək rayonunda yeni qapalı suvarma sistemlərinin qurulması 490 hektar ərazini su ilə təmin edəcək*

Kənd təsərrüfatı sahəsində yeniliklərin, texnika və texnoloji avadanlıqların, mütərəqqi suvarma üsullarının tətbiqi muxtar respublikamızda bu sahədə görülən işlərin davamlılığından və dövlətin kənd təsərrüfatının inkişafına olan dəstəyindən xəbər verir. Xüsusilə əkin sahələrinin su təminatının davamlı olması hər zaman diqqətdə saxlanılır. Belə ki, dünya təcrübəsində uğurla sınaqdan keçirilən qapalı suvarma şəbəkələrinin qurulması işi muxtar respublikanın Kəngərli və Şahbuz rayonlarında da tətbiq olunub.

Dünya səviyyəsində şirin su və enerji qaynaqlarının sürətlə tükəndiyi bir dövrdə bu sahədə yaranan qıtlıq artıq qlobal problemlərin artmasına səbəb olur. Xüsusilə kənd təsərrüfatında yaranan su problemi bu sahənin inkişafını ləngidir, istehsal olunan məhsulların keyfiyyət və kəmiyyət göstəricilərini aşağı salır. Yarana biləcək ərzaq çatışmazlığının qarşısının alınması məqsədilə bir sıra tədbirlər görülür, mütərəqqi suvarma şəbəkələrinin qurulması və istifadəsinə xüsusi diqqət yetirilir. Belə ki, qapalı suvarma şəbəkələri vasitəsilə hektarlarla sahə suvarma suyu ilə təmin edilir. İllərlə əkilməyən, yararlı və münbit torpaq sahələri ilə yanaşı, əkindən kənarda qalan quraq ərazilər də əkin dövriyyəsinə qatılır.



Sözügedən şəbəkələrin quraşdırılması işi Babək rayonunun Nehrəm qəsəbəsində, Çeşməbasar və Güznüt kəndlərində də uğurla davam etdirilir. Muxtar respublikanın kənd təsərrüfatı məhsulları istehsalı sahəsində xüsusi yeri olan Nehrəm qəsəbəsində 20,2 kilometr uzunluğunda xətlərin çəkilişi artıq başa çatıb. Belə ki, burada müxtəlifölçülü paylayıcı boru xətləri çəkilib, 187 hidrat qoyulub, hər hidrata uyğun beton hovuzlar yerləşdirilib, vintil və sutəmizləyici siyirtmələr quraşdırılıb. Qeyd edək ki, 250 hektar ərazini suvarma suyu ilə təmin edəcək bu qapalı suvarma şəbəkəsi yüksək məhsuldarlığın təminatçısıdır. Artıq işlərin böyük hissəsi yekunlaşmaq üzrədir. Nehrəm qəsəbəsi ilə yanaşı, rayonun Çeşməbasar və Güznüt kəndlərində də qapalı suvarma şəbəkələrinin çəkilişinə başlanılıb. 240 hektar əkin sahəsini davamlı su ilə təmin edəcək bu şəbəkə məhsul bolluğuna və əhalinin məşğulluğunun təmin olunmasına imkan verəcək.

Qapalı suvarma şəbəkələrinin qurulması kənd təsərrüfatının inkişafı baxımından mühüm rola malikdir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisi Xaliq Abbasov bildirir ki, meliorasiyanın növlərindən olan suvarmada əsas məqsəd kənd təsərrüfatı bitkilərindən yüksək məhsul almaq, torpağın su, hava, istilik rejimlərini təmin edərək nizamlamaqdır. Bildiyiniz kimi, vegetasiya dövründə bitkinin inkişafı üçün torpaqda nəmlik olmalıdır. Muxtar respublikanın quraq iqlim şəraitini nəzərə alsaq, suvarma işinin təşkil olunmasına ehtiyac böyükdür. Vaxtında və düzgün qaydada suvarılan əkin sahələrində kənd təsərrüfatı bitkilərinin suya olan tələbatı təmin edilir, faydalı mikroorqanizmlərin inkişafına şərait yaradılır, bitkinin qida rejimi, boy və inkişafı güclənir, həmçinin torpağın hava rejimi tənzimlənir.



Son illər muxtar respublikamızda qapalı suvarma şəbəkələrindən daha geniş istifadə edilir. Bu cür suvarma şəbəkələri xüsusi boru və beton xətlərlə ərazilərə verildiyi üçün su itkisinin qarşısı tamamilə alınır. Suvarılması çətin olan torpaq sahələri bu üsulla su ilə təmin edilə bilir. Həmçinin bu suvarma metodu tətbiq edildikdə əkin sahələrində şoranlaşma, gölləşmə baş vermir, əksinə, su torpağın hər bir qarışına bərabər paylanaraq bitkinin ehtiyacını tam təmin edir. Vaxtında və davamlı su ilə təmin olunan bitkinin inkişafı yaxşı gedir ki, bu da, öz növbəsində, bol və keyfiyyətli məhsul deməkdir.

Yaşayış məntəqələrində qapalı suvarma şəbəkələrinin qurulması torpaq mülkiyyətçiləri tərəfindən minnətdarlıqla qarşılanır. Uzun illərdir, kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olan tanınmış aqronom, Nehrəm qəsəbə sakini Tofiq Abutalıbov deyir: "Müstəqilliyin bəhrələrindən biri də odur ki, hər kəs öz torpağının sahibidir. Bu gün torpaqdan gəlir götürmək, əkib-becərmək üçün dövlətimiz tərəfindən bütün şərait yaradılıb. Nehrəm qəsəbəsində də qapalı suvarma şəbəkəsinin qurulması torpaqdan səmərəli istifadəyə geniş imkanlar açacaqdır. Torpaq mülkiyyətçiləri yaradılan şəraitdən səmərəli istifadə edəcək, ölkəmizdə kənd təsərrüfatının inkişafı ilə bağlı müəyyənləşdirilən vəzifələri uğurla yerinə yetirəcək, əkin sahələrini genişləndirərək bol məhsul istehsal edəcəklər".

*Bir sözlə, torpaqların su təminatının yaxşılaşdırılması, xüsusilə qurulan qapalı suvarma şəbəkələri əkinçiliyin inkişafına səbəb olub. Suvarılan torpaqlar isə bol məhsul deməkdir. Naxçıvan torpağı bərəkətlidir, naxçıvanlılar isə zəhmətkeş. Bütün bunlar dövlətin dəstəyindən güc alanda süfrəmizdə məhsul bolluğu yaranır. Məhsul bolluğunu isə qapalı suvarma şəbəkələrinin qurulması kimi müasir suvarma metodları şərtləndirir.*

**Lalə ALLAHVERDİYEVA**
***"Şərqin səhəri" qəzetinin məsul katibi***

*Ulu Yaradanın kainatın əşrəfi sayılan insana bəxş etdiyi söz o zaman qüdrət qazanar ki, onun təməlində Vətənə sevgi, peşəyə sədaqət, milli-mənəvi dəyərlərə ehtiram dayansın. Qələmə aldığı hər bir mövzunun sətirlərində oxucularına yurduna bağlılıq, xalqına məhəbbət, ən əsası isə öz peşəsinə olan sonsuz sevgini hiss etdirməyə qadir olan jurnalist necə də xoşbəxt və bəxtəvərdir.*

# Vətənə, xalqa və mətbuata xidmətlə keçən ömrün 75-ci zirvə çağı

Bu gün tam əminliklə böyük iftixar və qürur hissi ilə deyə bilərik ki, günü-gündən gülüstana çevrilən, qədimlik və müasirliyin çiyin-çiyinə addımladığı diyarımız savadlı qələm sahiblərinə, jurnalistlərə günümüzün reallıqlarını tarixin səhifələrinə həkk etmək, onları gələcək nəsillərə miras qoymaq üçün yazıb-yaratmaq həvəsi verib. Elə bu mövzumuzun da qələmə alınma məqsədi oxucularımızı ömrünün 75-ci çağını yaşayan, bu yetmiş beş ilə illərin peşəkarlığını, zəhmətini, qayğılarını sığdırmaqla onu mənalı, maraqlı yazıçı-jurnalist ömrünə çevirən mətbuatımızın ağsaqqalı, Ali Məclisin deputatı, Əməkdar jurnalist Fərəc Fərəcovun ömür kitabı, çoxşaxəli fəaliyyəti ilə qısaca tanış etməkdir.



Bir ömür kitabını vərəqləyirəm... Bu ömür kitabının hər sətrinə peşəyə sədaqət, dostlara məhəbbət, xeyirxah işlər, gözəl əməllər yazılıb. Mövzumuzun qəhrəmanı Fərəc müəllimi Naxçıvan ictimaiyyəti də yaxşı tanıyır, yazıçı-publisistlər də, jurnalist adını daşıyanlar da. Çünki o, nə az, nə çox ömrünün 40 ildən artıq bir müddətini kağız-qələmlə, söz sənətilə təmasda keçirib. Fərəc müəllimin peşəsinə olan dərin marağı, yazıb-yaratmaq eşqi, rəngarəng şeirləri, poemaları onları mütaliə edən hər bir kəsin ağlında müəllifin ilkin eskizlərini yaradır. Onun yaradıcılıq dünyasına səyahət edərkən insan talelərinə söykənmiş publisistik yaradıcılıq nümunələri ilə yanaşı, yurduna, doğma elinə, Naxçıvana qırılmaz tellərlə bağlanması, şeirlərinin hər birində sanki məmləkətinin xoş gününə sevinməsi, şadlanması oxucularını daha da qürurlandırır:

*Ötdün tarix sınağından,*
*Ərənlər keçdi canından,*
*Əskik olmaz qonağından.*
*Qürurum, şöhrətim, şanım,*
*Mənim doğma Naxçıvanım.*

...1947-ci ildə Culfa rayonunun Yaycı kəndində Rza kişinin ailəsində dünyaya gələn yazıçı-publisist Fərəc Fərəcov uşaqlıq illərindən ədəbiyyata, poeziyaya maraqgöstərən Fərəc müəllimin bu ülvi həvəsi illər keçdikcə onu publisistikaya, mətbuat sahəsinə, ələ qələm alıb yazıb-yaratmağa sövq edib. 1967-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının Azərbaycan dili və ədəbiyyat fakültəsinə daxil olub, 1971-ci ildə isə həmin ali təhsil ocağını müvəffəqiyyətlə başa vurub. Ali məktəbi bitirdikdən sonra 1971-1972-ci illərdə Culfa şəhər 1 nömrəli tam orta məktəbdə pedaqoji fəaliyyətə başlayıb. Gənclik illərindən mətbuat sahəsində fəallıq göstərən Fərəc müəllim 1972-1977-ci illərdə Naxçıvan Muxtar Respublikasının "Zəfər" rayon qəzetində şöbə müdiri kimi jurnalistlik fəaliyyətinə qədəm qoyub, 1988-1994-cü illərdə isə həmin qəzetin (sonralar "Arazın səsi" adlandırıldı) redaktoru kimi fəaliyyətini davam etdirib. 1977-1988-ci illərdə isə "Şərq qapısı" qəzetində Culfa-Ordubad rayonları üzrə xüsusi müxbir kimi fəaliyyət göstərib. 1994-1996-cı illərdə Culfa Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini kimi məsuliyyətli vəzifəni icra edib. Yazıçı-jurnalist Fərəc Fərəcov 1997-2000-ci illərdə rayon qəzetində məsul katib və "Şərq qapısı" qəzetinin bölgə müxbiri kimi jurnalistlik yaradıcılığı ilə məşğul olub. 2005-2012-ci illərdə Naxçıvan Mətbuat Şurasının sədri vəzifəsində fəaliyyət göstərib. Azərbaycan və Naxçıvan Yazıçılar birliklərinin üzvü olmaqla bərabər, həm də 2016-cı ildə Türkiyə Elm və Ədəbiyyat Sahiblərinin Məslək Birliyinin üzvü seçilmişdir.

Fəaliyyətini yalnız yazıb-yaratmaqla yekunlaşdırmayan Əməkdar jurnalist siyasi müstəvidə də çıxış etməklə II, III, IV və V çağırışlarda Ali Məclisin deputatı kimi fəaliyyət göstərib. Hazırda altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olan Fərəc Fərəcovun əsərləri bir çox dünya dillərinə tərcümə edilmişdir. Yetmiş beş illik fəaliyyətində bir çox istiqamətlərdə göstərdiyi fəallıqlar içərisində tədqiqat xarakterli ədəbi yaradıcılıq nümunəsi olan "Muxtar respublika mətbuatı: dünən və bu gün" və "Jurnalist" kitabları da onun gərgin zəhməti və səyi ilə işıq üzü görüb. Bununla belə 10-dan çox bədii-publisist kitabın müəllifidir.

Azərbaycan ədəbi-bədii yaradıcılıq məkanında bir çox ziyalılarımız arasında Fərəc Fərəcovun özünəməxsus yeri var. Akademik İsa Həbibbəylinin belə bir fikri dilə gətirdiyimiz bu qənaəti dəqiq təsdiqləyir: "Bədii və publisistik yaradıcılıq fəaliyyəti Fərəc Fərəcovun taleyi və tərcümeyi-halıdır". Filologiya elmləri doktoru Salidə Şərifovanın "Fərəc Fərəcov yaradıcılığının problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri" adlı monoqrafiyasına yazdığı "Ön söz"də akademik İsa Həbibbəyli Fərəc Fərəcovun yaradıcılıq yolunu bu fikirlərlə oxucuya çatdırır: "Əməkdar jurnalist, yazıçı və publisist Fərəc Fərəcovu tanıdığım 1967-ci ildən bu günə qədərki çoxcəhətli fəaliyyətini qısaca olaraq aşağıdakı kimi ifadə etmək olar: özünü danışıqla, sözlə yox, əməldə və ədəbi-publisist yazılarda, əsərlərində ifadə etməyin nümunəsi".

*Yenə yolum düşdü Nəqşi-cahana,*
*Hər yanda toy büsat, təravət gördüm.*
*Yaradan əllərdə, quran ellərdə,*
*Kökünə bağlılıq, sədaqət gördüm.*

Fərəc müəllimin çoxşaxəli bədii irsi, yaradıcılıq yolundan danışarkən, ilk növbədə, ziyalının bədii, daha sonra isə elmi publisistikası diqqəti cəlb edir. Yazıçı-jurnalist "Sən olmasaydın", "Çətin günlərdə", "Tanrı istəyi, tanrı qisməti", "Zaman ötdükcə gözümüzdə ucalan dahi" və daha bir neçə kitabında ümummilli lider Heydər Əliyevin, Prezident cənab İlham Əliyevin Vətən, dövlətçilik, xalq qarşısındakı xidmətlərini təhlil edir. Bu əsərlərdəki publisistikanı həm də ona görə elmi publisistika kimi qiymətləndirmək olar ki, həmin əsərlərdə qoyulan mövzu tarix, zaman və müasirlik qovşağında rəhbər gücünün, bu iradənin inkişafa, dövlətçiliyə tətbiqində elmi baxışa istiqamətləndiyini nəzərdə tutur. Adıçəkilən kitabların hər birində ölkəmizin keçdiyi tarixi inkişaf yolu oxucuya publisistikanın, ədəbi dilin gücü ilə sadə və lakonik tərzdə çatdırılır. Kitabları oxuyub təhlil etdikcə, Azərbaycanın sözügedən illərdəki inkişaf yolu oxucuya aydın olur.

Yazıçı-jurnalistin hekayə, esse, povest, iri formatlı janrlar, maraqlı elmi yanaşmaların əks olunduğu əsərləri də vardır ki, onların hər biri müəllifin yaradıcılıq ruhunun ən gözəl nümunələri hesab olunur. Mövzumuzun bu məqamında yazıçının "Aydın sabahlar", "Ömür bir nağıldır" kimi əsərlərinə – romanlarına diqqət çəkmək istərdim. Məlum olduğu kimi, avtobioqrafik əsərlərdə müəllifin özünün obrazı vasitəsilə ədəbi portretin yaradılması, həmçinin müəllifin həyat və yaradıcılığının işıqlandırılaraq gələcək nəsillərə ötürülməsi mühüm əhəmiyyət kəsb edir.

Yazımızın sonunda onu da diqqətə çatdıraq ki, İlahinin insana nemət kimi verdiyi söz və onun imkanlarından layiqincə istifadə edənlər istər dövlət qarşısında, istərsə də mənsub olduqları xalq içərisində özlərinə geniş nüfuz qazanır, öz əməklərinin bəhrəsini almağa qadir olurlar. Mövzumuzun qəhrəmanı Fərəc Fərəcovun da uzun illər mətbuat sahəsindəki xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 1975-ci ildə mətbuat sahəsindəki səmərəli fəaliyyətinə görə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı, 2007-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adı, 2017-ci ildə yazıçının 70 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri fərmanı ilə təltif edilmişdir. 2013-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə buraxılan "Xatirə" qızıl medalına və 2019-cu ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalına layiq görülmüşdür.

*Ariflər deyirlər ki, həyat dünya qapısından içəri atılan addımla başlayan bir yolçuluqdur. Hər birimiz yıxıla-qalxa bu yolu yaxşı qət etməyə çalışırıq. Həyat yolunda o kəslər uğur qazanır ki, daim saf əməlləri, xeyir işləri, peşəsinə sədaqəti ilə sayılıb-seçilsin. Elə mövzumun qəhrəmanı Fərəc müəllim kimi. Eşitdikdə ki, Fərəc müəllimin 75 yaşı tamam olur, insanın buna inanmağı gəlmir. Çünki enerji dolu qəlbi, zəngin təcrübəsi, gənc jurnalistləri öyrətmək, gələcəyin peşəkar jurnalisti kimi yetişdirmək istəyi sanki hər keçən gün daha da artır. Yubileyiniz mübarək olsun, dəyərli ziyalı, peşəkar jurnalist həmkarımız. Sizi muxtar respublika jurnalistləri adından təbrik edir, sağlam ömür, cansağlığı arzu edirik...*

**Məcid RƏŞADƏTOĞLU**

# Növbəti *"STEAM Yay məktəbi"* məktəblilər üçün səmərəli və yaddaqalan olub



28-30 iyun 2022-ci il tarixlərdə Ağbulaq İstirahət Mərkəzində "STEAM Yay məktəbi" təşkil edilib. "Yay məktəbi"ndə ümumtəhsil məktəblərindən, ümumilikdə, 50-yə yaxın məktəblinin iştirakı təmin olunub ki, bu da həmin şagirdlərdə STEAM düşüncəsi və metodikası, XXI əsr bacarıqları, fənlərarası əlaqə, layihə əsaslı öyrənmə, innovativ təlim metodları kimi istiqamətlərdə biliklərin daha da genişləndirilməsinə şərait yaradıb.

3 gün davam edən "STEAM Yay məktəbi" zamanı STEAM təhsil metodu praktik məşğələlər vasitəsilə aşılanıb. Yekun tədbirdə təlimi uğurla başa vuran şagirdlərə "STEAM Yay məktəbi"ndə iştirak etdiklərinə görə sertifikatlar verilib. Sonra onların hazırladıqları layihələrin təqdimatı keçirilib. Məktəblilər qrup şəklində hazırladıqları layihələr haqqında məlumat veriblər.

"STEAM Yay məktəbi"nin iştirakçıları olan təlimçilər və şagirdlərlə görüşüb söhbətləşdik. Onların təəssüratlarını oxucularımıza təqdim edirik:

***Ceyran Məmmədova – təlimçi-müəllim:*** – Ötən tədris ilində olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları tərəfindən muxtar respublikada təhsil alan şagirdlər üçün "STEAM Yay məktəbi" layihəsi təşkil olunub. Hazırda bu layihədə muxtar respublika məktəblərində təhsil alan 50 şagird iştirak edir. Onlar tədris ili ərzində Təhsil Nazirliyi tərəfindən keçirilən STEAM təhsilinə dair müsabiqələrdə fəal iştirak edən, uğur qazanan şagirdlərdir. Onu deyim ki, "Yay məktəbi"ndə şagirdlər böyük həvəslə iştirak edirlər. "Yay məktəbi"ndə şagirdlərin STEAM sahəsində biliklərinin daha da təkmilləşdirilməsi üçün Təhsil Nazirliyi tərəfindən hazırlanan təlim proqramına əsasən "Yay məktəbi"nin ilk günü Humonoid robot haqqında şagirdlərə məlumat verildi. Müxtəlif təhsil robotları var ki, həmin robotların funksiyaları barədə şagirdlərə təlim keçirildi. Təlimin ikinci günü yenə də Micro:bit proqramı ilə bağlı dərin biliklərə yiyələnmələri üçün şagirdlərə daha mürəkkəb kodlaşdırılmaların aparılmasını öyrətdik. "Yay məktəbi"nin sonuncu günü isə şagirdlər Arduino platforması ilə tanış oldular. Bu platformada şagirdlər Arduino kodlaşdırmanın iş prinsipini və komandalar ardıcıllığını öyrəndilər. Proqrama uyğun olaraq burada idman yarışları keçirildi, müxtəlif in-



tellektual oyunlar oynanıldı, robotlarla bağlı filmlər nümayiş olundu.

***Pərvin Hacıyev – təlimçi-müəllim:*** – "Yay məktəbi" şagirdlərin bilik və bacarıqlarının təkmilləşdirilməsində əhəmiyyətli rol oynayır. Təlimlərin STEAM təhsil metodu uyğun olması isə daha böyük üstünlük təşkil edir. Çünki bu, dünyada ən müasir təlim metodudur və şagirdlərimiz də XXI əsrin yenilikçi gəncləri olduğundan bu metodda öyrənməyə daha çox can atırlar. Sadəcə, şagirdlərə bu sahədə düzgün istiqamət vermək lazımdır ki, gələcəkdə onlar peşəkar kadr kimi yetişsinlər. Onu da qeyd edim ki, bu metodla tətbiq olunan çalışmalarda layihələrin qrup şəklində hazırlanması böyük önəm daşıyır. Bu, şagirdlərə komanda işinin necə həyata keçirildiyini öyrətməklə yanaşı, eyni zamanda birlikdə daha çox araşdırma aparmağa sövq edir.

***Nihad Cabbarlı – Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi:*** – Muxtar respublikamızda biz şagirdlərin bilik və bacarıqlarının üzə çıxarılması üçün davamlı olaraq yarışlar, festivallar keçirilir. Mən də bu kimi bir çox tədbirlərdə iştirak etmişəm. Artıq iki ildir ki, digər dərslərlə yanaşı, STEAM təhsilinə böyük marağım var və bununla bağlı müsabiqələrdə, festivallarda iştirak etmək üçün müxtəlif layihələr hazırlayıram. STEAM təhsil metoduna uyğun olaraq "Robotunu yarat" müsabiqəsinə qatılmışam və ikinci yerə layiq görülmüşəm. "Mancanaq robot" müsabiqəsində isə birinci yerin qalibi olmuşam. Son dəfə isə muxtar respublikamızda ilk dəfə keçirilən "STEAM təhsil festivalı"nda "Short Movie" layihəsi üzrə birincilik qazanmışam. "STEAM Yay məktəbi"ndə iştirak etdik. Burada digər şəhər, rayon və kənd məktəblərindən tədbirə qoşulan şagird yoldaşlarımla maraqlı yarışlar keçirdik, layihələrimizlə bağlı müzakirələr apardıq. İlk gün təlimçilər bizə Humonoid robotların proqramlaşdırılması və insan həyatındakı əhəmiyyəti barədə məlumat verdilər. Daha sonra biz öz yazdığımız kodlarla robotlar üzərində işlər apardıq. Həmçinin burada Micro:bit proqramlaşdırma ilə bağlı dərslər keçdik. Təşkil olunan bu məktəb bizi müxtəlif proqramların hazırlanması ilə bağlı daha dərin biliklərə yiyələndirdi. Arzu edirəm ki, STEAM-lə bağlı öyrəndiyimiz yeniliklər, əldə etdiyimiz biliklər sayəsində bundan sonra keçirilən yarışlarda, müsabiqələrdə, festivallarda naxçıvanlı şagirdlər olaraq müvəffəqiyyətlə çıxış edək və böyük nailiyyətlər qazanaq.

***Elçin Sadiqov – Culfa rayon 3 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi:*** – Gərgin dərs ilindən sonra yorğunluğumuzu üzərimizdən atmaq və yay tətilində asudə vaxtımızı dəyərləndirmək məqsədilə Ağbulaq İstirahət Mərkəzində təşkil olunan bu məktəb biz şagirdlər üçün səmərəli, maraqlı və əyləncəlidir. Eyni zamanda "Yay məktəbi"ndə yaradılan STEAM təhsil metodu ilə bağlı keçirilən keyfiyyətli təhsil imkanları və təşkil olunan əyləncəli proqramlar bizim üçün çox əhəmiyyətlidir. Mən artıq ikinci dəfədir ki, "STEAM Yay məktəbi"ndə iştirak edirəm. Ötən il biz burada STEAM-lə bağlı ilkin bilik və bacarıqlara yiyələndik, bu təhsil metodunun həyatımızdakı rolunu öyrəndik. Bu il isə biz şagirdlər artıq müxtəlif proqramlar vasitəsilə bir-birindən maraqlı layihələr üzərində işlədik. Həmçinin burada robotlarla bağlı filmlər izlədik, müxtəlif idman, şahmat və bilik yarışları keçirdik. Naxçıvanımızın əsrarəngiz təbiətini, fauna və florasını tanımaq və ekoloji biliyimizi artırmaq üçün gəzintilərdə iştirak etdik. Tədbirin təşkilatçılarına və üzərimizdə əməyi olan bütün təlimçilərə minnətdarlığımı bildirirəm.

***Elxan Məmmədov – Heydər Əliyev adına Hərbi Liseyin 9-cu sinif şagirdi:*** – Bu yaxınlarda keçirilən "STEAM təhsil festivalı"nda müvəffəqiyyətlə iştirak etdim və Micro:bit proqramı vasitəsilə hazırladığım "Mancanaq robot" layihəsi üzrə yer tutdum. Artıq iki ildir ki, bir-birindən maraqlı layihələrin hazırlanması üçün yenilikçi addımlar atmağa səy göstəririk. Təlimçilərimizin zəhməti sayəsində yiyələndiyimiz biliklər daha böyük layihələr üzərində çalışmağa imkan yaradır. Şagirdlər üçün təşkil olunan "STEAM Yay məktəbi"ndə həmin bilikləri daha dərindən mənimsəmək üçün biz 6 komandaya bölünüb yarışlar keçirdik və kodlaşdırmalardan istifadə



edərək daha dəqiq, daha sürətli layihələr hazırlamağa çalışdıq. Əminəm ki, "STEAM Yay məktəbi" mənim kimi, şagird yoldaşlarımda da yüksək əhvali-ruhiyyə yaratdı. Bu isə bizi növbəti dərs ilinə daha maraqla başlamağa həvəsləndirir.

*"STEAM Yay məktəbi" zamanı müşahidələrimizdən bu qənaətə gəldik ki, STEAM təhsil metodunun həvəskar şagirdləri "Yay məktəbi" zamanı öz layihələrini komanda şəklində hazırlayır, birlikdə təcrübələr apararaq maraqlı nəticələr əldə edirlər. Komanda şəklində çalışmağın müsbət tərəfi isə muxtar respublika məktəblərində təhsil alan şagirdlərin birlikdə fikir mübadiləsi aparmasıdır. Bununla da öz fikirlərini daha aydın izahetmə, ünsiyyətqurma bacarıqlarına yiyələnirlər. Elə bunun nəticəsidir ki, muxtar respublika şagirdləri müsabiqələrdə, festivallarda öz layihələrini peşəkar şəkildə təqdim edirlər.*

**Gülcamal TAHİROVA**

## Muxtar respublikada ailə, qadın və uşaq hüquqları qorunur

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması may ayında da diqqətdə saxlanılmış, təlim, monitorinq, tədbirlər keçirilmiş və beynəlxalq günlər qeyd edilmişdir.*

Ötən ay Naxçıvan Müəllimlər İnstitutu ilə birgə "Gənc ailələrin sağlam olması gələcək nəsillərin sağlam olması deməkdir" mövzusunda tədbir keçirilmiş, maarifləndirici broşürlər paylanılmışdır. Beynəlxalq Ailə Günü ilə əlaqədar "Təbriz" restoranının tədbirlər zalında şəhid, qazi, hərbçi, gənc, həkim, müəllim, dövlət qulluqçusu, musiqiçi, ailə təsərrüfatçısı, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin ailələrinin iştirakı ilə tədbir keçirilmişdir. Tədbirdə 9 nümunəvi ailənin evlilik ildönümləri qeyd edilmiş, ailələrə hədiyyələr verilmişdir.

Hesabat dövründə gənclər arasında ailə dəyərlərinin təbliği ilə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Gənclər Fondu və Rəssamlar Birliyi ilə birlikdə muxtar respublika üzrə yeniyetmə və gənclər arasında "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda IX muxtar respublika yazı, rəsm və dekorativ-tətbiqi sənət müsabiqəsi əvvəlcədən elan edilmiş, müsabiqəyə 112 şəxsin 131 əl işi təqdim olunmuşdur. 42 müsabiqə qalibinə diplom və hədiyyələr verilmiş, onların əl işlərindən ibarət sərgi təşkil olunmuşdur.

Culfa rayonunda yaşayan xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü və sağlamlıq imkanları məhdud qadınlara xalçaçılıq peşəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmişdir. Təlimdə 5 xüsusi qayğıya ehtiyacı olan ailədən, 11 sağlamlıq imkanları məhdud qadın və 2 Culfa Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin aid dərnək rəhbəri olmaqla, 18 nəfər iştirak etmişdir. Muxtar respublikada tək və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi may ayı ərzində də davam etdirilmişdir. Şəhər və rayon icra hakimiyyətlərindən aid kateqoriyadan olan qadınlar haqqında məlumatlar alınmış, komitədə yaradılmış bazaya əlavə edilərək təhlili aparılmış, peşə təhsili alması ilə əlaqədar 4 qadının məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinə göndərilmişdir.



Ötən ay Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşdirilən "Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsinin icrasına başlanılmışdır. Layihənin icra müddəti cari ilin sonunadək nəzərdə tutulur, iyul-avqust aylarında isə sərmayə kapitalının verilməsi planlaşdırılır. Layihənin şərtlərinə uyğun olaraq muxtar respublikanın şəhər və rayonlarından 50 xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü və sağlamlıq imkanları məhdud qadınlar cəlb olunacaqdır. Layihənin sonunda hər bir nəfərə 1360 manat məbləğində sərmayə kapitalı veriləcəkdir. Fəaliyyət sahəsinin qurulmasına görə qeyd olunan vəsaitdən artıq və ya az vəsait ehtiyac olarsa, həmin məbləğ verilə bilər, həmçinin vəsait artıq qalarsa, layihə iştirakçılarının sayı da artırıla bilər. Qadınlara veriləcək sərmayə kapitalının ümumi dəyəri 68 min 350 manatdır. Verilən sərmayə kapitalının 75 faizi ailə təsərrüfatlarının qurulması, 25 faizi isə digər fəaliyyət sahələri üzrə nəzərdə tutulmuşdur. Bununla əlaqədar milli və xalq tətbiqi sənət nümunələri, sahibkarlıq və digər fəaliyyət sahələri ilə məşğul olmaq istəyən, xüsusən də qayğıya ehtiyacı olan ailələrin qadınları haqqında məlumatlar toplanmış, müvafiq təlimlərdə iştirak etmək istəyən 80-dən artıq qadın haqqında məlumat hazırlanmışdır.

"Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsində sərmayə kapitalı verilmiş 6 qadının yaşadığı ünvanlarda sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı ötən ay monitorinq keçirilmiş, heç bir neqativ hal və nöqsan aşkarlanmamışdır. Özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında istedadlı qadınların əl işləri satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur. "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq 3 uşaq müəssisəsində monitorinq keçirilmiş, Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair yaradılmış elektron məlumat bankına 134 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

May ayı ərzində tədrisə cəlb olunmuş 9 sağlamlıq imkanları məhdud uşağın təhsil aldığı 6 uşaq müəssisəsində monitorinq aparılmışdır. Ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə Şərur rayon Mahmudkənd kənd tam orta məktəbində valideyn, şagird və müəllimlər arasında maarifləndirici görüş olmuşdur. Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar muxtar respublikanın şəhər və rayonlarında 26-31 may tarixlərdə silsilə tədbirlər keçirilmiş, rayonlar üzrə təhsil, incəsənət və idman sahələri üzrə fərqlənən 90 uşağa komitə tərəfindən fəxri fərman və hədiyyələr verilmişdir. Əlavə olaraq hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud, xüsusi qayğıya ehtiyacı olan ailənin, şəhid və qazi uşaqlarının iştirakı ilə muxtar respublikanın istirahət guşələrinə, muzeylərə və tarixi abidələrə ekskursiyalar təşkil edilmiş, film nümayişi olmuş, uşaqlara hədiyyələr təqdim olunmuşdur. Muxtar respublikada yaşayan hemofiliya, talassemiya və leykoz xəstəliyi olan uşaqlar üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasında komitə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə qanvermə aksiyası keçirilmiş, toplanmış 11,5 litr qan xəstəxananın qan bankına təhvil verilmişdir. Eyni zamanda Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində keçirilmiş tədbirdə uşaqlara Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının ifasında səhnəciklər nümayiş etdirilmişdir. "Muzey günləri" çərçivəsində komitə əməkdaşları Naxçıvan Duz Muzeyində olmuşlar.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Yeniliklərin tətbiqi diqqət mərkəzindədir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası nəticəsində sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi sistemli xarakter alır, onların sosial reabilitasiya imkanları artırılır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin fəaliyyəti bu baxımdan mühüm əhəmiyyətə malikdir. Ötən müddət ərzində, mərkəzin maddi texniki bazası möhkəmləndirilib, burada çalışanlar üçün yüksək iş şəraiti yaradılıb, bölmələr bütün müvafiq texnologiyalarla təchiz olunub. Nəticə etibarilə, müəssisədə təyinatına uyğun bütün xidmətlərin göstərilməsi üçün zəruri mühit yaradılıb.

Yeniliklərin tətbiqinə xüsusi önəm verilən mərkəzdə bu günlərdə daha bir terapiya bölməsi istifadəyə verilib. Yeni yaradılan oyun terapiyasının tətbiqində isə əsas məqsəd uşaqlarda funksional hərəkət pozuntularının qarşısının alınması zamanı psixoloji yükün azaldılması və reabilitasiya tədbirlərinin onların həyatında daha əyləncəli şəkildə tətbiqindən ibarətdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Üç qat dünya və Avropa çempionu güləşçilərimiz üçün seminar keçib

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Güləş Federasiyasının təşkilatçılığı ilə keçirilən seminarlar davam etdirilir.*

İyunun 30-da Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində sərbəst güləş üzrə 3 qat dünya və Avropa çempionu, Yay Olimpiya Oyunlarının 2 qat mükafatçısı, Naxçıvan güləş məktəbinin yetirməsi Hacı Əliyevin iştirakı ilə növbəti seminar təşkil olunub.

Seminardan öncə çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov qonaqları salamlayaraq, keçirilən seminarın zəruriliyini vurğulayıblar. Eyni zamanda nazirlik və federasiyanın gələcək planları haqqında danışılıb, güləşin muxtar respublikada kütləviliyi üçün görülən işlərdən bəhs edilib.

Təşkil olunan seminarda 80-dən artıq güləşçi iştirak edib.

Çıxışların ardınca seminara start verilib. Hacı Əliyev xalça üzərində simulyasiya xarakterli güləş görüşləri vasitəsilə bəzi çətin və çıxılmaz vəziyyətlər zamanı icra oluna biləcək ən uyğun fəndləri iştirakçılara nümayiş etdirib, idmançının yarışa hazırlığı və yarış zamanı diqqət göstərməli olduğu məsələlərlə bağlı fikirlərini diqqətə çatdırıb. O, eyni zamanda məşqçi və idmançıları maraqlandıran sualları da cavablandırıb.



Seminardan sonra Hacı Əliyevin fikirlərini öyrəndik: "İlk olaraq bu seminarın təşkilatçılarına minnətdarlığımı bildirirəm. Yenidən gənc güləşçilərimizlə bir arada olduğum üçün xoşbəxtəm və sevindirici haldır ki, Naxçıvanımızda belə güləşçilərimiz var. Keçirilən seminarın məqsədi gənc güləşçilərlə görüşüb onlara bildiklərimizi öyrətmək və gələcəkdə çempion olmaları üçün onları ruhlandırmaq, özünəinam hissi formalaşdırmaqdır. Bu gün Naxçıvanda güləşin inkişafı üçün hər bir imkan yaradılıb və gənclər də bundan istifadə emtəlidir. Qısa vaxt kəsiyində onlara yeni fəndlər praktik olaraq göstərildi. Ancaq əsas məqsəd gənc güləşçiləri seminar zamanı gələcək yarışlarda qələbə üçün ruhlandırmaq, onları çempion olmalarına inandırmaqdır. Naxçıvana hər gəldiyimdə bu diqqət və qayğını hiss etmişəm. Çalışacağam ki, bu görüşlər daha tez-tez keçirilsin. Bir naxçıvanlı kimi Vətənimdə olan idmançılarla görüşmək, onlara bildiklərimi öyrətmək qürurvericidir. Arzum odur ki, Naxçıvanda daha böyük idmançılar yetişsin və onlar ölkəmizi layiqincə təmsil etsinlər. Azərbaycanda idmanın inkişafı ölkə rəhbəri cənab İlham Əliyevin daim diqqətindədir. Qazanılan hər bir uğur asanlıqla başa gəlməyib və mənə elə gəlir ki, güləşçilərimiz bu qələbələri görüb bu növə daha çox maraq göstərirlər. Ölkə başçısı ilə son görüşümüzdə də onun mənimlə və hər bir idmançı ilə ayrı-ayrılıqda maraqlanması, bir daha göstərdi ki, cənab Prezidentimiz idmanın inkişafına xüsusi qayğı ilə yanaşır. Bir naxçıvanlı olaraq ölkə rəhbəri tərəfindən xoş sözlər eşitmək, layiq görülmək qürurvericidir".

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Dövlət Universiteti

### *əlavə (təkrar) ali təhsilin qaydalarına uyğun olaraq 2022-2023-cü tədris ilində aşağıdakı ixtisaslar üzrə əlavə (təkrar) ali təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir*

| | İxtisasın şifri | İxtisasın adı | Təhsil müəssisəsinin təklif etdiyi yerlər | | |
|---|---|---|---|---|---|
| | | | Cəmi | Əyani | Qiyabi |
| 1. | 050201 | Beynəlxalq münasibətlər | 15 | | 15 |
| 2. | 050205 | Filologiya (Azərbaycan dili və ədəbiyyat) | 10 | | 10 |
| 3. | 050206 | Hüquqşünaslıq | 60 | | 60 |
| 4. | 050211 | Psixologiya | 10 | | 10 |
| 5. | 050214 | Tarix | 10 | | 10 |
| 6. | 050215 | Tərcümə (ingilis-Azərbaycan dilləri) | 10 | | 10 |
| 7. | 050405 | İqtisadiyyat | 25 | | 25 |
| 8. | 050409 | Mühasibat | 20 | | 20 |
| 9. | 050503 | Coğrafiya | 10 | | 10 |
| 10. | 050511 | Riyaziyyat | 10 | | 10 |
| 11. | 050616 | İnformasiya texnologiyaları | 10 | | 10 |
| **Cəmi:** | | | **190** | | **190** |

Əlavə (təkrar) ali təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*– rektorun adına ərizə;*

*– ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;*

*– 3x4 santimetr ölçüdə 6 ədəd fotoşəkil;*

*– sağlamlıq haqqında arayış;*

*– əmək kitabçasından çıxarış;*

*– şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.*

Xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə təqdim etməlidirlər.

Sənədlər 2022-ci il iyul ayının 1-dən avqust ayının 1-dək hər gün (istirahət günlərindən başqa) saat $10^{00}$-dan $16^{00}$-dək Naxçıvan Dövlət Universitetində qəbul edilir. (Əsas bina 1-ci mərtəbə, sənəd qəbulu komissiyası).

Əlavə (təkrar) ali təhsil almaq üçün universitetə sənəd vermiş şəxslərlə müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müqavilə yolu ilə müvafiq əlavə (təkrar) ali təhsil ixtisası üzrə tələbələr sırasına qəbul edilirlər. Təhsil haqqı müqavilə əsasında müvafiq ixtisaslar üzrə uyğun qaydada ödənilir.

**Ünvan: Naxçıvan şəhəri**
**Universitet şəhərciyi, əsas bina, telefon: 036-544-08-61 (Daxili 1156)**

## Pauerliftinqçimizdən uğurlu nəticə




Bakı Su İdmanı Sarayının ərazisində güc idman növləri üzrə Avrasiya çempionatı keçirilib. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Beynəlxalq Güc İdman Növləri Birliyinin dəstəyi, Azərbaycan Stronqmen Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirdə Azərbaycan, Türkiyə, İran və Gürcüstandan 170-ə yaxın idmançı mübarizə aparıb. İdmançılar strikt karl, benç press və didlift hərəkətlərində müxtəlif çəki dərəcələri üzrə 55 dəst medal uğrunda güclərini sınayıblar.

Yarışda iştirak edən Naxçıvan idmançısı Əli Əsgərov benç press üzrə 90 kiloqram çəki dərəcəsində mübarizə aparıb. Təmsilçimiz 195 kiloqramlıq çəkini ram edərək qızıl medal qazanıb.

Məlumat üçün bildirək ki, Əli Əsgərov pauerliftinq üzrə dünya üçüncüsü, Azərbaycan çempionu, ölkə qran-prisinin qızıl medalçısı və digər nəticələri ilə uğurlu karyeraya malik idmançılarımızdandır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayonunun Aşağı Yaycı kənd sakini Əliyev Nadir Məmməd oğlunun adına olan JN-717 inventar nömrəli Dövlət Aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Şəhriyar kənd sakini Məhərrəmov Afəl İbrahim oğlunun adına olan JN-465A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Rüstəmov Fərid Azər oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 581